# ŞİRVANDA MİLLİ MƏCLİSƏ SEÇKİLƏR AZAD, ƏDALƏTLİ KEÇİRİLDİ


# İŞIQ

*İctimai-siyasi qəzet*

| Qəzet 1930-cu ildən çıxır | ŞİRVAN ŞƏHƏRİ | №3 (7474) | 15 fevral 2020-ci il | Şənbə | Qiyməti 20 qəp. |
|---|---|---|---|---|---|


## Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov tərəfindən vətəndaşların növbəti səyyar qəbulu



**6 fevral 2020-ci il tarixdə, şəhərin İ.Qayıbov küçəsində, 1 nömrəli tam orta məktəbdə Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov tərəfindən təsdiq olunmuş qrafikə uyğun olaraq vətəndaşların növbəti səyyar qəbulu keçirilmişdir. Qəbulda İcra Hakimiyyəti başçısı aparatının məsul işçiləri, dövlət orqanlarının yerli idarələrinin və xidmət təşkilatlarının rəhbərləri iştirak etmişlər.**

Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov son illər ərzində ölkəmizin iqtisadi durumun yaxşılaşdırılması, sağlam biznes mühitinin formalaşdırılması, investisiyaların cəlb edilməsi, kiçik və orta sahibkarlığın inkişafı, əhalinin məşğulluq səviyyəsinin artırılması və maddi rifahının yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlər barədə ətraflı çıxış edərək bildirib ki, regionların sosial-iqtisadi cəhətdən inkişafı dövlətimizin iqtisadi prioritetləri arasında mühüm yer tutur. Həyata keçirilən regional inkişaf tədbirlərinin nəticəsi olaraq bu gün respublikamızın digər şəhər və rayonları kimi ən böyük sənaye mərkəzlərindən olan Şirvan şəhəri dinamik inkişaf edərək müasirləşir.

Vurğulanıb ki, ölkə başçısının tikinti-quruculuq və abadlıq işlərini zövqlə və günün tələbləri səviyyəsində aparılması ilə bağlı göstərişlərinə və tövsiyələrinə müvafiq olaraq 2020-ci il ərzində Şirvan şəhəri ərazisində geniş miqyaslı abadlıq-quruculuq və yenidənqurma işlərinin aparılması, şəhərin park və xiyabanlarında səliqə-səhmanın yaradılması nəzərdə tutulub. Görüləcək işlərin bir hissəsi olaraq Məhəmməd Füzuli adına Şirvan şəhər Parkı xüsusi layihə əsasında, yüksək keyfiyyətlə və zövqlə əsaslı şəkildə yenidən qurulacaqdır.

İlqar Abbasov bildirib ki, Şirvan şəhərinin simasının günün tələbləri səviyyəsində qurulmasını təmin etmək məqsədilə həyata keçiriləcək kompleks tədbirlər və sosial infrastruktur layihələri uğurla icra olunacaqdır.

Qəbul zamanı 18 nəfər şəhər sakini onları narahat edən müxtəlif sosial məsələlərlə bağlı şəhər İcra Hakimiyyətinin başçısına müraciət ünvanlamışlar. Qəbula gələn vətəndaşlar fərdi qaydada dinlənilmiş və müarciətlərə aydınlıq gətirilmişdir. Həlli vacib olan problemlərin dərhal, digərlərinin isə araşdırılaraq qanunauyğun şəkildə tədbirlərin görülməsi üçün şəhər İcra Hakimiyyətinin başçısı tərəfindən əlaqədar qurum və təşkilatların rəhbərlərinə müvafiq tapşırıqlar verilmişdir.

Sakinlər öz çıxışlarında son illərdə respublikamızda həyata keçirilən islahatlardan, sosial-iqtisadi inkişafdan razı qaldıqlarını bildirmiş, onlara yaradılan şəraitə, göstərilən qayğıya və problemlərinin həllinə yönəlmiş səyyar görüşlərin təşkilinə görə dövlət başçısı cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür və minnətdarlıqlarını bildiriblər.

**2020-ci il ərzində Şirvan şəhərinin simasının günün tələbləri səviyyəsində qurulmasını təmin etmək məqsədilə qeyd olunan xüsusi proqramların və iri həcmli infrastruktur layihələrinin hazırlanaraq uğurla icra olunması nəzərdə tutulmuşdur.**

## 2020-ci il ərzində şəhər ərazisində həyata keçiriləcək sosial-infrastruktur layihələri və proqramlar:




· Məhəmməd Füzuli adına Şirvan şəhər Parkının əsaslı şəkildə yenidən qurulması;

· Şəhər sakinlərinin çoxsaylı müraciətləri əsasında onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinə müraciət edilməsi;

· Energetik 9, L-nt İbrahimov 10 saylı binaların qarşısında 1,5 ha ərazidə müasir memarlıq üslubunda "Abad məhəllə"nin salınması, "İDEA" İctimai Birliyinin "Bizim həyət" layihəsi əsasında idman meydançası, idman və uşaq əyləncə qurğularının quraşdırılması;

· F.Eynullayev küçəsi 9 saylı binanın qarşısında və arxa hissəsində 1.3 ha ərazidə yeni "Abad məhəllə"nin salınması, həmçinin "Mərasim" evinin tikilməsi;

· Heydər Əliyev küçəsi 12 və 13 saylı binaların qarşısında "Mərasim" evinin tikilməsi və ərazinin abadlaşdırılması;

· G.Şıxbalaoğlu, Ş.Şükürov, S.Ə.Şirvani, 1 May, T.Ələkbərov, Vidadi küçələrində və "Şəhidlər Xiyabanı"ndan Xəqani küçəsinə qədər ərazidə-Heydər Əliyev prospektinin sağ hissəsi ilə ümumilikdə 13487 kv.m sahədə piyada səkilərinin salınması;

· 23 küçədə-F.Eynullayev, Xəqani, Naxçıvan, Q.Qarayev, C.Qaryağdıoğlu, H.Ərəblinski, A.Mustafayev, M.Əsədov, Ordubadi, F.X.Xoyski, İ.Şıxli, Heyranxanım 1 və 2, S.Bəhlulzadə, Niyazi, R.Rza, Təbriz, Y.V.Çəmənzəminli, X.Məmmədov, M.Füzuli, S.Ə.Şirvani, M.Qədirov küçələrində, ümumilikdə 51117 kv.m yollara asfalt-beton örtüyünün salınması;

· Çoxmənzilli yaşayış binalarının dam örtüklərinin ağac konstruksiyadan ibarət metal çardaqlı örtüklə əvəz edilməsi, dam örtükləri dəyişdirilmiş çoxmənzilli binaların fasad və giriş hissələrinin əsaslı təmir olunması;

· Torpaq və qum-çınqıl örtüklü uzunluğu 49.6 km olan 47 şəhər və qəsəbə daxili küçələrin asfalt-beton örtüyünün salınması və 56 küçənin işıqlandırılması üçün tədbirlərin görülməsi;

· 36 ədəd "Barak" tipli yaşayış evlərinin 174 mənzilində yaşayan 803 nəfər sakinin mənzil-məişət probleminin həll edilməsi üçün müvafiq tədbirlərin görülməsi;

· Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsünə qoşularaq 2020-ci ilin 26 fevral tarixində "Xocalıya ədalət" beynəlxalq maarifləndirmə kampaniyası çərçivəsində şəhər ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsinə 613 ədəd ağacın əkilməsi;

· 2020-2021-ci tədris ilində şəhər 21 nömrəli tam orta məktəb üçün 624 yerlik və "Bağ evləri" yaşayış massivində isə 1176 yerlik yeni məktəb binalarının tikintisi;

· 2020-ci ildə Şirvan şəhərindən olan şəhid ailələrinin, Qarabağ əlillərinin və digər aztəminatlı ailələrin mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün müvafiq tədbirlərin görülməsi;

· 2020-ci il ərzində şəhərin qaz təchizatının yaxşılaşdırılması üçün Füzuli, M.Mirzəyev, 1 May, Vaqif, H.Z.Tağıyev, N.Nərimanov, Energetik, Naxçıvan, M.Ə.Rəsulzadə, Z.Hacıyev, Ş.Qurbanov, F.Cavadov küçələrində ümumilikdə 7045 p.m istismar müddəti keçmiş xətlərin dəyişdirilməsi;

· Şirvan şəhər ərazisində əhali və qeyri əhali sektorunun dayanıqlı elektrik enerjisi ilə təminatının yaxşılaşdırılması sahəsində işlərin davam etdirilməsi;

· Şəhərin içməli su təchizatının yaxşılaşdırılması üçün G.Şıxbalaoğlu, Ş.Şükürov, S.Ə.Şirvani, Mehmandarov, İ.Qayıbov, Vaqif, H.Z.Tağıyev, Vidadi, M.İbrahimov küçələrində müxtəlif diametri ümumi uzunluğu 7200 p.m olan su xəttinin çəkilməsi;

· Şəhərin L-nt İbrahimov, T.İsmayılov, Xəqani, M.Ə.Rəsulzadə, 20 Yanvar, S.Zeynalov, Energetik, 28 May küçələrində yeni kanalizasiya şəbəkəsinin qurulması;

· 49 çoxmənzilli yaşayış binalarının zirzəmilərində kanalizasiya xətlərinin yenidən qurulması;

· 169 çoxmənzilli binalarda yerləşən 8320 mənzildə GPON layihəsi(bütün evlərə optik kabellə yüksək sürətlə internetin verilməsi) nin həyata keçirilməsi;

· Şəhər qəbirstanlığının ərazisinin genişləndirilməsi.



## 2 fevral - Gənclər Günü münasibəti ilə ümumşəhər tədbiri

**Şirvan şəhər İcra Hakimiyyətinin və şəhər Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə 2 fevral-Gənclər Günü münasibətilə ümumşəhər tədbiri keçirildi.**

Tədbirdə şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov, Şura üzvləri, idarə, müəssisə və təşkilatlarda çalışan gənclər, tələbələr, ictimai fəaliyyətə cəlb olunmuş könüllülər və şəhər ictimaiyyətinin nümayəndələri iştirak etdi.

Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov tədbir iştirakçılarını salamlayaraq qeyd edib ki, Azərbaycanda 2 fevral tarxinin Gənclər Günü kimi qeyd olunması müdrik siyasi lider Heydər Əliyevin adı ilə bağlıdır. 1996-cı il 2 fevral tarixində ümummilli lider Heydər Əliyevin dəstəyi ilə respublika gənclərinin I Forumu keçirilmişdir. Respublika gənclərinin həyatında mühüm hadisə olan bu forumdan bir il sonra ulu öndər 2 fevral gününün ölkədə Gənclər Günü kimi qeyd olunması barədə Sərəncam imzalamışdır. Gənclərə dövlət qayğısı gündən-günə artırıldı. Onların məsul vəzifələrə irəli çəkilməsinə, inkişaf etmiş demokratik ölkələrin təcrübəsindən bəhrələnmələrinə şərait yaradıldı. Cənab İlham Əliyevin 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilməsi respublikamızda digər sahələrin inkişafı ilə yanaşı idman və bədən tərbiyəsinin inkişafına, idmançılara göstərilən diqqət və qayğının artırılmasına səbəb oldu. Müasir gəncliyin formalaşması və inkişafı istiqamətində mühüm dövlət proqramları qəbul edildi. Həmin müdrik siyasətin nəticəsidir ki, bu gün ölkəmizdə idarəetmə bacarığı ilə seçilən intellektual, geniş dünyagörüşlü yeni nəsil yetişir.

İlqar Abbasov qeyd edib ki, ölkəmizdə gənclərə göstərilən dövlət qayğısı son illərdə Şirvan şəhərində də ardıcıl davam etdirilmiş, ötən müddət ərzində şəhərimizdə yeni idman meydançaları və qurğuları inşa edilmiş, mövcud idman zallarının və meydançalarının maddi-texniki bazası gücləndirilmiş, gənclərin, o cümlədən uşaq və yeniyetmələrin idmana maraqlarının artırılması istiqamətində təsirli tədbirlər görülmüşdür. Yeni salınan nümunəvi məhəllələrdə idman qurğuları quraşdırılmış, Şirvan Olimpiya İdman Kompleksi və Şirvan Gənclər Evi istifadəyə verilmişdir. İlqar Abbasov şəhər gənclərini 2 fevral Gənclər Günü münasibəti ilə təbrik edərək dövlətimizin gənclər qarşısında qoyduğu vəzifələrin layiqincə yerinə yetirilməsində onlara daha böyük uğurlar və nailiyyətlər arzu etmişdir.

Tədbirdə 2019-cu il ərzində Gənclər və İdman Nazirliyi tərəfindən keçirilmiş respublika miqyaslı tədbirlərin zona və final mərhələlərində fərqlənən gənc idmançılar və ictimai-sosial fəallığı ilə fərqlənən gənclər şəhər Icra Hakimiyyəti başçısının fəxri fərmanları və qiymətli hədiyyələrlə təltif edildilər. Daha sonra tədbir respublikamızın və şəhərimizin tanınmış incəsənət ustalarının konsert proqramı ilə davam etdirildi.



## Şirvan şəhərində ümumşəhər iməciliyi keçirildi

**Ötən şənbə günü təhsil və səhiyyə ocaqlarında, digər idarə, müəssisə və təşkilatlarda çalışan işçilərin, şəhərin Mənzil Təsərrüfatı İdarəsi və Kommunal Kombinatı müəssisəsinin əməkdaşlarının və fəal gənclərin iştirakı ilə şəhərin Heydər Əliyev prospektində yolun sol və sağ hissələrində, həmçinin Şəhidlər Xiyabanının ətrafında ənənəvi ümumşəhər iməciliyi keçirilmişdir.**

Kütləvi təmizlik aksiyasında yol kənarlarına əkilən müxtəlif növ ağacların qurumuş budaqları budanmış, qurumuş ağaclar yeniləri ilə əvəzlənmiş, əraziyə cəlb olunmuş xüsusi texnika vasitəsi ilə suvarılma işi aparılmışdır.

Ərazilər alaq otlarından təmizlənmiş, qurumuş ot örtüyü biçilərək sahmana salınmış, daş və digər tullantı parçaları toplanmışdır.

Yaşıllıq zolaqlarının genişlənməsi, ekoloji tarazlığının qorunması, ekoloji mühitinin sağlamlaşdırılmasının sürətlənməsi, eyni zamanda şəhər əhalisi arasında ekoloji mədəniyyətin və təbiətə qayğı hissinin güclənməsi baxımından böyük əhəmiyyəti olan ümumşəhər iməcliyində şirvanlılar böyük ruh yüksəkliyi ilə iştirak etmişlər.

# ŞƏHƏRİMİZDƏ MİLLİ MƏCLİSƏ SEÇKİLƏR AZAD, ƏDALƏTLİ KEÇİRİLDİ

**Fevralın 9-da sübh tezdən Şirvanda gediş-gəliş adi saatlardan tez başlayıb. İnsanlar bayram əhval-ruhiyyəsində idilər. Seçki hüququna malik şəhər sakinləri seçki məntəqələrinə tələsirdilər. Əvvəlcədən onu qeyd edək ki, Şirvanda Milli Məclisə keçirilən növbədənkənar seçkilərə ciddi hazırlıq işləri aparılmışdır. Parlament seçkilərində 46 saylı Şirvan DSK üzrə 34 məntəqədə 43 min 417 seçici səs verməlidir.**



## SEÇİCİLƏR SƏSVERMƏDƏ MÜTƏŞƏKKİL İŞTİRAK ETDİLƏR

Şəhid Bəhruz Aslanov adına Şirvan şəhər 16 nömrəli tam orta məktəbdə yerləşən 27 saylı seçki məntəqəsində saat 8-ə bir neçə dəqiqə qalmış məntəqə seçki komissiyasının sədri Çingiz Şirəliyev seçiciləri salamladı. Dəqiq vaxtında-yəni saat 8-də seçkilərə start verildi. Əlibala Quliyev, Musaxan Heydərli, Əkbər Ələkbərov ilk olaraq şəxsiyyət vəsiqələrini və bildirişlərini göstərib bülleten götürdülər. Sonra səsvermə kabinəsinə keçirlər.

Vətəndaşlıq borcunu ilk yerinə yetirənlərdən biri, təqaüdçü - energetik Malik Şirəliyev idi. Onunla qısa söhbət edirik. M.Şirləiyev dedi ki, sovetlər dönəmində və müstəqillik illərində seçkilərdə iştirak etmişəm. Keçən ilin 23 dekabrında Bələdiyyə seçkilərində də vətəndaşlıq borcumu yerinə yetirmişəm. Bu seçki əvvəlkilərdən xeyli fərqlidir. Əvvəla deputatlığa namizədlər çox idi. Onların təbliğat-təşviqat aparmaları üçün hər cür şərait yaradılmışdır. Namizədlər onlar üçün yaradılmış şəraitdən lazımınca bəhrələndilər. Biz seçicilər də namizədlərimizi yaxından tanıdıq. Yəni bu gün kimə səs verəcəyimizi dəqiqləşdirmişik.

Bu gün həlledici gündür. Seçki günündə sakinlərin fəallığı aydın görünür. Bu məntəqədə veb-kamera quraşdırılmışdır. Heç bir maneə olmadan hər kəs layiq bildiyi namizədə səs verir.

İnanıram ki, yeni seçiləcək deputat öz seçicilərinin etimadını layiqincə doğruldacaq.

Məntəqədə 40-dək müşahidəçi üçün də əlverişli şərait yaradılmışdır. Onlardan biri YAP-şəhər təşkilatından olan müşahidəçi T.Quliyev dedi ki, müşahidələri sərbəst, maneəsiz davam etdiririk.

Burada bizim üçün hər cür şərait yaradılmışdır. Məntəqədə səsvermə tam demokratik və şəffaf keçir. Bu, seçicilərin dövlətimizə və dövlətçiliyimizə sədaqətindən irəli gəlir.

Müşahidə etdiyimiz 7, 8, 21 nömrəli məntəqələrdə də seçki şəffaf, ədalətli keçirildi.

Sözügedən məntəqələrdə də 20-dən çox müşahidəçi qeydə alınmışdı. Müşahidəçilər burada onlar üçün hər cür şərait yaradıldığından danışdılar. Əminliklə dedilər ki, seçkilər azad, demokratik keçirilir.

**F.RƏHİMOV**

## XOŞBƏXT GƏLƏCƏYİMİZ NAMİNƏ

**Mən də tələbə dostlarım kimi qış tətilindəyəm. Qeydiyyatda şəhərimizdə olduğum üçün sübh tezdən 24 nömrəli seçki məntəqəsində səs verməyə tələsirdim.**

Gecəyarıdan başlayan qar, hələ də aramsız olaraq yağırdı.

Səhər saat 8-ə 15 dəqiqə qalıb. Əvvəl düşündüm ki, hava şəraitinin bu vəziyyəti seçici fəallığına təsir edəcək. Palto-plaşlarını qardan təmizləyə-təmizləyə gələn seçici axınını görəndə fikrimdə yanıldığımı anladım.

Səsverəmnin başlanmasına az qalırdı. Fürsətdən istifadə edib məntəqənin dəhlizinə toplaşan seçicilərə yaxınlaşdım. Mehman İbrahimov, Əli Abışov, Ramiz Məhərrəmov, Ceyhun Məmmədov, Pərvanə Məmmədova, Gülnarə Quliyeva, Faiq Quliyev, Müşfiq Qədirov bir yerə toplaşaraq havanın qəfil kəskin dəyişməsindən, yaşlı seçicilər isə pensiyaların artırılmasından danışırdılar. Yaşlılar Prezidentimizə minnətdarlıq edirdilər. Sonra bildirdilər ki, bu günkü seçkilər dövlətimizin kadr islahatları siyasəti kimi qəbul edilməlidir.

Bir müdrik qoca Hüseyn Arifin bir beyt şeirini belə dedi:

*Ayrılanda uçub itər havada,*
*Birləşəndə selə dönər damcılar.*



Sonra əlavə etdi. Biz ağsaqqallar Prezidentin ətrafında o damlalar kimi sıx birləşməliyik. Bu gənclər də bizdən ibrət götürsünlər, - deyib, məni göstərdi.

Elə, bu vaxt məntəqənin sədri Vaqif Məmmədov səsvermənin başlandığını bildirdi.

Komissiya üzvləri və müşahidəçilər öz yerlərini tutmuşdular.

Dəhlizdə seçicilər növbəyə dayanmışdılar. Bir yandan da adamlar axın-axın gəlirdilər.

Saat 15-də məntəqəyə yenidən baş çəkirəm. Seçki məntəqəsinin sədrinin seçici fəallığından razı qaldığı hiss olunurdu. Düzdür səhərə nisbətən seçicilərin sayı azalmışdı. Bu da təbiidir.

Məntəqədə EXZİT-poll fəaliyyət göstərirdi. Seçki zalında veb-kamera quraşdırılıb.

Məlumat aldım ki, məntəqəyə baş çəkən beynəlxalq müşahidəçilər səliqə-sahmandan, səsvermənin şəffaflığından məmnun oldublar.

Axşam düşür... Saat 19-da məntəqənin qapısı bağlanır. Komissiya üzvləri qutuları açıb, səsləri saymağa başlayırlar...

Müşahidəçilər də diqqətlidirlər...

**Fidan Salmanlı,**
**BDU-nun üçüncü kurs tələbəsi**

**Doqquz fevralda keçirilən növbədənkənar parlament seçkiləri 46 nömrəli Şirvan DSK-nın 29 saylı məntəqəsində də fəallıqla müşahidə olunmuşdur. Fasiləsiz yağın qarın soyuqluğu seçicilərin məntəqəyə gəlmələrinə heç də mane ola bilməyib.**



29 saylı seçki məntəqəsinin katibi (sədr Ramiz Nəcəfov) Mütalib İsayevin qəzetimizə müsahibə verdi. Müsahibəsində bildirdi ki, məntəqəmiz tezdən saat 8-dən öz qapılarını seçicilərin üzünə açmışdır.

## XARİCİ MÜŞAHİDƏÇİLƏR DƏ SEÇKİ PROSESİNDƏN RAZI QALIBLAR

Seçkilərlə bağlı hazırlıq işlərinin yüksək səviyyədə həyata keçirilməsinin nəticəsi olaraq məntəqəmizdə seçki öz qaydası ilə gedir. 1486 seçicimizdən 44 nəfəri yaşı 18-ə çatmış seçicilərdir. Ülkər Haqverdiyeva Rövşən qızı bunlardan biridir. Biz ilk dəfə səs verənləri əlamətdar gün münasibətilə təbrik etdik. Onlara uğurlar arzuladıq. Fəallıqlarına görə təşəkkür etdik. Onlar da məntəqədə yaradılmış əlverişli şəraitə, diqqətə görə razılıqlarını bildirdilər və ilk dəfə səs verdikləri üçün qürur duyduqlarını söylədilər.

Seçicilərimizdən ən yaşlı sakin isə Müzəffər Musayevdir. Yaşının 89 olmasına baxmayaraq ilk səs verməyə gələn seçicilərimizdəndir.

Məntəqə katibi əlavə olaraq bildirdi ki, artıq günün 2-ci yarısı təzə başlayıb. Seçicilərin yarıdan çoxu məntəqəyə gələrək seçkilərdə iştirak ediblər. İstər müşahidəçilər, həmçinin seçicilər üçün hər cür şərait yaradılıb. Xarici müşahidəçilər də məntəqəmizdə olub, seçki prosesini izləyib, razı qalmışlar.

Bu vaxta qədər heç bir qanun pozuntusu və neqativ hallar baş verməmiş və güman edirəm ki, bundan sonra da baş verməyəcəkdir. İnanırıq ki, seçicilərimizin inanaraq səs verdiyi namizəd onların ümidlərini doğruldacaq.

**Musaxan HEYDƏRLİ,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü,**
**ictimai müxbir**

## SEÇKİ MƏCƏLLƏSİNİN TƏLƏBLƏRİNƏ UYĞUN

**46 saylı Şirvan Seçki Dairəsinin 21 saylı məntəqəsi şəhərimizdəki M.İsrailov adına 18 nömrəli təbiət, humanitar təmayüllü məktəb-liseydə yerləşir. Məntəqə S.Zeynalov 4, 12, 14, Xaqani 21, M.Ə. Rəsulzadə 15, 17, 17 a ünvanlarında yaşayan seçiciləri əhatə edir. Məntəqənin seçki siyahısında 1365 nəfər seçicinin adı qeyd olunmuşdur. Bunlardan 34 nəfəri ilk dəfə səs verirdi. Məntəqədə veb-kamera quraşdırılmış, məntəqə lazım olan avadanlıqlarla və texniki vasitələrlə təmin olunmuşdur.**



Seçki günü hava qarlı və soyuq olmasına baxmayaraq səsvermə başlamazdan əvvəl məntəqənin həyətində canlanma vardı. Nəhayət, saat 8-də məntəqə seçki komissiyasının sədri İsmayıl Allahverdi oğlu Yusubov səsvermənin başlanmasını elan etdi.

Beləliklə, səsvermə başlandı. Səsverməni 37 nəfər müşahidəçi izləyirdi. Adilə Niyaz qızı Əliyeva ilk bülleteni qutuya salaraq konstitusiya hüququndan istifadə etdi. Ondan sonra Raimz Maarif oğlu Əliyev, Zakir Qulamhüseyn oğlu Həziyev və digərləri öz seçimlərini etdilər.

Məntəqə seçki komissiyasının sədri İsmayıl Yusubuovun verdiyi məlumata görə saat 10-a kimi 163 nəfər (11 faiz), 12-yə kimi 311 nəfər (22 faiz), 15 -ə kimi 506 nəfər (37 faiz) seçici məntəqəyə gəlib öz seçimini etmişdi.

Ümumiyyətlə, məntəqəyə gələn hər bir seçici səsvermənin ədalətli, şəffaf və demokratik şəraitdə keçməsinin şahidi oldu.

Bir sözlə,9 fevralda 21 saylı məntəqədə keçirilən səsvermə seçki məcəlləsinin tələblərinə tam uyğun şəkildə keçirildi. Heç bir ciddi qanun pozuntusu qeydə alınmadı.

**Alik RZAYEV,**
**«İşıq»ın ştatdankənar müxbiri**

**Ahıl yaşdayam. Uzun illər neft sahəsində çalışmışam. İqtisadçı-mühəndis kimi vəzifə borcumu layiqincə yerinə yetirmişəm. Əməyim həmişə dəyərləndirlib. Şəhərimizin ictimai-siyasi həyatında yaxından iştirak etmişəm.**

## İNAMLA SABAHIMIZA SƏS VERDİM

Ötən illərdə - sovetlər dönəmində və müstəqillik illərində saysız-hesabsız seçkilərdə vətəndaşlıq borcumu layiqincə yerinə yetirmişəm. Tam səmimiyyətlə deyirəm ki, builki növbədənkənar parlament seçkiləri əvvəlkilərdən xeyli fərqlənir. Əvvəla namizədlərin sayı çox idi. Təqaüddə olduğum üçün bu namizədlərlə görüşlərdə yaxından iştirak edirdim. İstər açıq, istərsə qapalı yerlərdə keçirilən görüşlərdə hər bir namizədə bərabər şərait yaradıldığının şahidi oldum. İnsafən namizədlər də bu şəraitdən lazımınca bəhrələnir, platformaları, özləri barədə ətraflı məlumatlar verirdilər. Onlar seçicilərlə canlı dialoqa girir, sualları ətraflı canlandırırdılar. Görəcəkləri işlər barədə danışmaqla yanaşı, seçicilərin təkliflərini də diqqətlə dinləyirdilər. Bir sözlə, seçici-deputat mandatı qazanmaq istəyən namizəd arasında canlı dialoq yaranırdı.

Məhəllələrdə keçirilən görüşlər də maraqla qarşılanırdı. Demək olar di ki, deputat mandatı uğrunda gərgin, maraqlı mübarizə gedirdi.

Nəhayət, fevralın 9-u gəlib çatdı. 11 nəfər namizədin ad və soyadlarını seçki bülletenində gördük. Namizədlər arasında gənc də, orta yaşlı kişi, qadın da var idi. Mən bu namizədlərin hər birinə hörmətlə yanaşıram. Hər kəsin öz konstitusiya hüqundan istifadə etmək haqqı var.

Mən həmişəki kimi 24 nömrəli məntəqədə layiq bildiyim namizədə səs verdim. Onu da deyim ki, məntəqəmizdə bu dəfə də əlverişli şərait yaradılmışdı. Heç kəsə maneçilik törədilmirdi. Yerli müşahidəçilər əvvəlki seçkilərdən daha çox idi. Onlar da seçkilərin gedişini diqqətlə izləyirdilər.

Məntəqədə quraşdırılmış veb-kamera seçkinin onlayn vasitəsi ilə dünyanın hər bir yerində izlənməsinə şərait yaradırdı. Deməkdə məqsədim budur ki, getdikcə seçici mədəniyyətimiz də yüksəlir. Seçicilərimiz məntəqələrə axışır, fəallıq nümayiş etdirirlər. Bu yaxşı haldır.

Mən son olaraq yeni seçilmiş deputatımıza uğurlar arzulayıram. İnanıram ki, o seçici etimadını layiqincə doğruldacaq.

**Eldar QULİYEV,**
**veteran iqtisadçı-mühəndis**

Şəhidlərimiz

# Qayıt bircə anlıq, qayıt, ay bala!



**1980-ci il iyun ayının 13-də Muradovlar ailəsinin hər zaman qürur duyub, fəxr edəcəkləri körpə dünyaya gəlir. Bu balacaya Məhəmməd adını verirlər.**

Balaca Məhəmməd təkcə valideynlərinin deyil, hər kəsin sevimlisi olur. 20 Yanvar şəhidi Elçin İmanov adına 10N-li tam orta məktəbdə oxuyan Məhəmmədi müəllimləri də çox sevirdi. 20 illik qısa həyatında mərdliyi, cəsarəti, gülər üzü, xoş xasiyyəti ilə hər kəsin sevgi və hörmətini qazanmağı bacarmışdı.

Əsgər getməyi çox istəyirdi. Nəhayət 1998-ci ilin yayında həqiqi hərbi xidmətə çağırılır. Xidməti vəzifəsinə düşmənlə üzbəüz Füzuli rayonunun Horadiz kənd ərazisində başlayır. Burada da hər kəsin hörmətini qazanmağı bacaran Məhəmməd əsgərliyinin bitməyinə az qalmış qardaşının toy şənliyində iştirak etmək üçün qısa müddətli məzuniyyətə gəlir. Dünya sirli dünyadır.İnsan başına gələcəyini əvvəlcədən hiss edir. Məhz qardaşının toyu günü, o sevinc-li günündə Vətən üçün canını fəda etmiş şəhidləri yad etməyi unutmayan Məhəmməd toy karvanı ilə birlikdə Şəhidlər xiyabanını da ziyarət edir. Özü də bilmədən sanki sevincini, 1ay 24 gün sonra bura gələrək igidlərlə birgə uyuyacagi şəhidlərlə bölüşür...

2000-ci il dekabrın 11-də əsgərlərin ehtiyata buraxılması haqqında prezidentin Sərəncamını dinləyən Muradovlar ailəsi Məhəmmədin yolunu səbirsizliklə gözləyirlər. Anası Xuraman xanım oğlunun sevdiyi birinin olduğunu bilirdi. Həyat yoldaşı Yadulla ilə Məhəmməd üçün edəcəkləri toy haqqında tez-tez danışırdılar.

Lakin həyat acı üzünü 2000-ci il dekabrın 19-da Muradovlar ailəsinə göstərir. Sevinclə yolunu gözlədikləri oğlanlarının acı xəbəri gəlib çıxır. Məhəmməd Muradov Füzuli rayonunun Horadiz kənd ərazisində hərbi tapşırığı yerinə yetirib geri dönərkən minaya düşərək şəhid olur.

Valideynlərinin Məhəmmədin gələcəyi üçün qurduğu xəyallar da bir gecədə alt-üst olur. Məhəmməd isə 1ay 24 gün öncə yad etdiyi igidlər kimi şəhidlik zirvəsinə ucalaraq Azərbaycan xalqının ölməz, igid, qəhrəman övladı kimi əbədiyyətə qovuşur.

Düzdür, bu gün Məhəmməd bizlərlə birgə deyil, üzünü görmür, səsini eşitmirik, lakin o xalqimiz, millətimiz var olduqca yaşayacaq. Məhəmməd təkcə Yadulla ata ilə Xuraman ananın övladı deyil, bütün xalqın övladıdır.

Şəhidimizin adını əbədiləşdirmək üçün yaşadığı evin qarşısında "Şəhid bulağı" xatirə abidəsi ucaldılmışdır. Xatirə abidəsinin tikintisini şəhər rayonlararası Dövlət Texniki inventarlaşdırma Mülkiyyət Hüquqlarının Qeydiyyatı və Şəhərsalma Mülkiyyəti kadastr idarəsinin keçmiş rəisi, xeyirxahlığı ilə fərqlənən Hicran Saqiyev öz üzərinə götürmüşdür. Xatirə abidəsinin və xatirə lövhəsinin açılışı 2005-ci il iyunun 13-də şəhidimizin ad günündə baş tutmusdur. Xatirə lövhəsində Yadulla atanın ürəkləri sızladan şeiri yazılmışdır:

*Yollara baxıram sənsiz olandan*
*Yollar da uzanir, uzanır yaman.*
*Gedəndə - "dönəcəm,"- dedin axı sən*
*Bəs niyə dönmədin niyə, ay bala*
*Qayıt bircə anlıq, qayıt, ay bala.*

Muradovlar ailəsində yenə də Məhəmməd adlı bir gənc böyüyür. Bu igid bala şəhidimizin qardaşı oğludur. Balaca Məhəmmədə uzun ömür və ailəsinə, Vətəninə layiqli övlad olmasını diləyirik.

**Allah bütün şəhidlərimizə rəhmət etsin!..**

**Aidə Cənnətqızı**

# HƏRBİ TƏHSİL ALMAQ İSTƏYƏNLƏR ÜÇÜN...

**Yanvarın 30-da Şirvan şəhərindəki 10 №li tam orta məktəbdə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin maarifləndirmə tədbiri keçirilmişdir. Regional xarakterli bu tədbirə Şirvan, Hacıqabul, Sabirabad, Saatlı və Cəbrayıl rayon məktəblərinin hərbi rəhbərləri, eləcə də xüsusi təhsil müəssisələrində təhsil almaq istəyən şagirdlər qatılmışdır.**

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin xüsusi təyinatlı təhsil müəssisələrinə qəbulla bağlı keçirilən bu maarifləndirmə tədbirində **Azərbaycan Respublikası Müdafiə Nazirliyi Hərbi Təhsil İdarəsinin məsul əməkdaşları polkovnik-leytenant Rəşad Hüseynov və mayor Firavan Şərifalıyev** iştirak etmişlər.

Mayor F.Şərifalıyev iştirakçılara xüsusi təyinatlı təhsil müəssisələri haqqında ətraflı məlumat vermiş, bu müəssisələrə qəbulla bağlı əsas qaydaları izah etmiş, bu müəssisələrdə təhsilin özünəməxsusluğuna aydınlıq gətirmişdir.

Polkovnik-leytenant Rəşad Hüseynov da çıxış edərək xüsusi təhsilin xarici olkələrdə davam etdirilməsi imkanlarına və şərtlərinə aydınlıq gətirmiş, tədbir iştirakçılarının suallarını cavablandırmışdır.

Tədbirin sonunda iştirakçılara xüsusi təhsil müəssisələrinə qəbul qaydalarını əks etdirən bukletlər paylanmışdır.

Vətənimizin müdafiə qabiliyyətini möhkəmləndirmək məqsədilə gənclərin xüsusi təhsil müəssisələrində təhsilə cəlb olunmanı həyata keçirmək məqsədinə yönəldilmiş bu tədbir işgüzar şəraitdə keçirilmiş, iştirakçılar Azərbaycan Respublikası Müdafiə Nazirliyi Hərbi Təhsil İdarəsinin məsul əməkdaşları polkovnik-leytenant Rəşad Hüseynov və mayor Firavan Şərifalıyevə bu vacib və əhəmiyyətli görüşün təşkili və ətraflı məlumat üçün minnətdarlıqlarını bildirmişlər.

**Rəfail Əliyev,**
**istefada olan baş leytenant,**
**Şirvan şəhər 1 №li tam orta məktəb-xüsusi liseyin hərbi rəhbəri, Əməkdar müəllim, "İŞIQ" qəzetinin ictimai müxbiri**

# XOCALI SAKİNİ DANIŞIR

**Rəsmi məlumata görə 1992-ci il fevralın 25-dən 26-a keçən gecə Ermənistan silahlı qüvvələri tərəfindən 7 min nəfər əhalisi olan Dağlıq Qarabağın Xocalı şəhərinə hücüm zamanı 106-sı qadın, 63-ü uşaq və 70-i yaşlı insan olmaqla 613 günahsız Azərbaycan vətəndaşı vəhşicəsinə qətlə yetirildi. 76-sı uşaq olmaqla, 487 nəfər yaralanmış, 1275 nəfər Ermənistan silahlı qüvvələri tərəfindən əsir götürülmüşdür. İtkin düşən 150 nəfərin taleyi indiyə qədər məlum deyil.**

Xocalıların taleyi doğrudan da dəhşətlidir. Xocalı faciəsini görüb onun ağrı-acısını yaşayan, çətinliklə Şirvan şəhərinə pənah gətirən 63 yaşlı Arif Qüdrət oğlu Əzizov o müdhiş gecəni belə xatırlayır:

- Quduzlaşmış ermənilərin qəfil hücumundan sonra əliyalın insanlar canlarını qurtarmaq üçün qarlı dağlara, soyuq meşələrə üz tutmuşdular. Həmin gecə biz də qohum-əqraba və bir dəstə şəhər sakini çox çətinliklə Qarqar çayının kənarına çatdıq. Hava artıq işıqlanmışdı. Ermənilər bizi görə bilərdilər. Kol-kosun arasına girib hava qaralana qədər gözlədik. Gecəykən Qarqarı keçdik. Onu da deyim ki, Xocalıdan çıxarkən atam Qüdrət kürəyindən də güllə yarası almışdı. Onu orada yaralı vəziyyətdə atıb gələ bilməzdik. Çətinliklə onu da gətirdik. Və nəhayət Ağdama gəlib çıxa bildik. Çoxumuzun ayağını, əlini şaxta vurmuş, sətəlcəm olmuşduq. Dərhal bizi burada xəstəxanaya yerləşdirib müalicə etdilər. Bölgü zamanı bizi Şirvan şəhərinə göndərdilər. Bura bizim üçün doğma idi. Çünki neçə illər öncəsi 2 bacım Şirvana gəlin köçmüşdü.



Müsahibim söhbətinə ara verib yenidən xatirəsini təzələdi:

-Qardaşım Mehman Əzizov Xocalıda özünümüdafiə batalyonunda döyüşürdü. O da həmin gecə ermənilərlə vuruşmada həlak olub. Milli Qəhrəman Tofiq Hüseynov atam Qüdrətin bacısının, Əlif Hacıyev isə dayısının oğulları idilər. Təkcə bizim nəsildən 47 nəfər Xocalı müsibətində şəhid oldu. Buna elə soyqırım demək olar. Qardaşım Mehmanın ailəsi bu soyqırımdan təsadüfən sağ qalıblar. Onun həyat yoldaşı, iki oğlu və bir qızı hazırda Gəncədəki Bağbanlar məhəlləsində yaşayırlar. Atam isə o güllə yarasından sonra az yaşadı. 1995-ci ildə «Xocalı, can Xocalı» deyə-deyə dünyasını dəyişdi. Anam Şükufə isə 2017-ci ilin yazında rəhmətə gedib.

Xocalıya dönmək ona da qismət olmadı.

Arif Əzizovla 2 il bundan əvvəl dövlətimiz tərəfindən qaçqın və məcburi köçkünlər üçün tikilən, Xaqani küçəsində yerləşən 3 mərtəbəli binanın 21 nömrəli mənzildə çay süfrəsi arxasında əyləşib söhbət edirik. Təmir olunmuş geniş otaqlarda hər cür şərait var. Arif əlavə olaraq bildirdi ki, 2 oğlum, qızım bir nəvəm də var. Atamın adını nəvəmə qoymuşam. Qaçqın və köçkünlər üçün tikilən yeni qəsəbədə 9 mərtəbəli binada qızıma 2, oğluma isə 3 otaqlı təmirli, hər cür şəraiti olan təzə mənzil də veriblər. Ümumiyyətlə, demək istəyirəm ki, biz dövlətimizdən, onun başçısı İlham Əliyevdən, Birinci vitse-prezident Mehriban xanım Əliyevadan, Şirvan camaatından çox razıyıq.

Şəhər rəhbərliyi, Şirvan şəhər Polis şöbəsinin rəisi Hikmət Quliyev, Dövlət Qaçqınkomun Şirvan şəhər üzrə nümayəndəsi Fəxrəddin Niftəliyev həmişə bizimlə maraqlanır, öz köməklərini göstərirlər. Oğlum Cahangir fiziki cəhətdən qüsurlu olmasına baxmayaraq şəhər nəqliyyatında işlə təmin olunub.

Dövlət qaçqınkomun Şirvan şəhəri üzrə səlahiyyətli nümayəndəsi F.Niftəliyevlə söhbət zamanı öyrəndim ki, 1992-ci ilin fevral ayında Xocalıdan bura 14 nəfərdən ibarət 4 ailə gəlmişdi. Ötən bu illər ərzində onların sayı artıb. Dövlətmiz, şəhər rəhbərliyi onlara hər cür kömək göstərir.

Xocalıların bir arzuları var: dədəbaba yurdları düşmən tapdağından azad olsun. Yurd-yuvalarına dönsünlər. O gün uzaqda deyil.

**Musaxan HEYDƏRLİ,**
**ictimai müxbir**

# İctimai birliyin sədri ilə söhbət

**Şəhid ailələrinə, müharibə əlillərinə, veteranlara və əhalinin həssas təbəqəsi hesab olunan insanlara qayğı göstərmək həm cəmiyyətin, həm də dövlətin başlıca vəzifələrindən biridir. Elan olunmamış qanlı-qadalı Qarabağ savaşının səngiməsindən (atəşkəsdən) 26 il vaxt ötür. Lakin ermənipərəst dövlətlərin himayəsi nəticəsində torpaqlarımızın 20 faizi hələ də ermənilərin nəzarəti altındadır. Bir milyondan çox qaçqın, köçkünümüz var. Əlbəttə biz inanırıq ki, gec-tez qələbə bizimlədir.**

Şəhid və müharibə əlillərinin, onların ailələrinin, müharibə veteranlarının qayğısına qalmaq, sosial və mənəvi ehtiyaclarını ödəmək, hüquqlarını müdafiə etmək olduqca zəruridir. Bütün bunlarla bağlı bir çox ictimai qurumlar, birliklər fəaliyyət göstərir. Belə ictimai birliklərdən biri də Şirvan şəhər Təbriz küçəsi ev 7-də yerləşən Azərbaycan Respublikasının Şəhid Ailələri Əlillər və Müharibə Veteranlarının Hüquqlarının Müdafiəsi İctimai Birliyinin şəhər şöbəsidir. Birliyin fəaliyyəti, gördüyü işlər barədə məlumat almaq üçün ictimai birliyin sədri Arzu Cəbrayıl oğlu İbrahimovla həmsöhbət oldum.

*Müsahibim haqqında qısa arayış: Arzu Cəbrayılov 1967-ci ildə Cəbrayıl rayonunda anadan olub. 1974-cü ildə Şirvan şəhərinə köçüb burada yaşamalı olub. Qarabağ savaşında Ağdam, Füzuli, Cəbrayıl rayonlarında ermənilərə qarşı vuruşub. Lələtəpədə yaralanıb. 2-ci qrup müharibə əlilidir. Ailəlidir, 2 qızı, bir oğlu var. 2019-cu ilin iyun ayından Azərbaycan Respublikasının Şəhid Ailələri Əlillər və Müharibə Veteranlarının Hüquqlarının Müdafiəsi İctimai Birliyi Şirvan şəhər şöbəsinin sədridir.*

- Haqqınızda qısa da olsa məlumat aldım. İstərdim birliyin sədri kimi fəaliyyətiniz barədə məlumat verəsiniz.

-Birliyimiz təzə yaranıb. 7 aydır ki, fəaliyyət göstərir. Ofis haqqında da heç kimə müraciət etməmişəm. Yaşadığım fərdi evin ərazisində gördüyünüz kimi 15 kvadratmetrlik otaqda yerləşirik. Hələ ki, ictimai birliyimizin 35 nəfər üzvü vardır. Gördyüyümüz işlər barədə onu deyə bilərəm ki, bizə müraciət edənlərə kömək göstəririk. MN işlər idarəsinin arxivinə Abbasov Faiq Feyruz oğlu, Babayev Valeh Paşa oğlu, Əliyev Ramiz Mirzağa oğlu, Xamadiyev Nemət Mirzağa oğlunun ərazi bütövlüyümüz, suverenliyimiz və Qarabağ uğrunda gedən döyüşlərdə həqiqi xidmət keçmələri barəsində arxiv arayışı haqda müraciət edilmişdir. Səyimiz bəhrəsini verdi. Adı çəkilən idarə tərəfindən lazımi sənədlər ünvanımıza göndərilmişdir.

Əliyev Elçin Şıxalı oğlu barəsində «Qarabağ veteranı» statusu və vəsiqəsi almaq üçün etdiyimiz müraciət də müsbət nəticələnmişdir.



Elçin Əliyev «Qarabağ veteranı» adı və vəsiqəsi ilə təmin olunmuşdur.

Cəmiyyətimizin rəsmi müraciətindən sonra Qarabağ qazisinin nəvəsi İbrahimli Mustafa Cavid oğlu Gəncə şəhər Uşaq-Gənclər İnkişaf Mərkəzində fəaliyyət göstərən dərnəklərə olan ödənişli üzvülük haqqından azad edilmişdir.

-Daha nə əlavə etmək istərdiniz?

-Əliyev Əliheydər Ağaqardaş oğlu və Fətiyev Mais Sabir oğlu barəsində də arxiv məlumatı almaq üçün müraciət ünvanlamışıq, amma hələ ki, cavab almamışıq. Ümidvarıq ki, bu sorğumuz da müsbət həll olunacaq. Bir sözlə, çalışırıq ki, bizə müraciət edənlərə kömək edək. Onlar qanun çərçivəsində istədiklərini əldə etsinlər.

Söhbətə görə sağ olun!

**Musaxan HEYDƏRLİ**

# Fevral ayında vergi orqanına təqdim edilməli olan bəyannamələr, hesabatlar və ödənilməli vergilər

2020-ci ilin yanvar ayına görə vergi ödəyiciləri tərəfindən tədiyyəçisi olduqları

· Əlavə dəyər vergisinin bəyannaməsi,

· Aksiz bəyannaməsi,

· Yol vergisinin bəyannaməsi,

· Mədən vergisinin bəyannaməsi,

· Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsi və

· Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan verginin bəyannaməsi 2020-ci ilin fevral ayının 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməli və təqdim edilmiş bəyannamələr üzrə hesablanmış vergilər həmin müddətdək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

· Daşınmaz əmlak təqdim edən şəxslərdən ödəmə mənbəyində tutulan sadələşdirilmiş verginin bəyannaməsi 2020-ci ilin fevral ayının 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

· Məcburi dövlət sosial sığortası və işsizlik sığortası üzrə 2020-ci ilin yanvar ayı üzrə hesablanmış sığorta haqları 2020-ci ilin fevral ayının 17-dən gec olmayaraq tam həcmdə nağdsız formada dövlət büdcəsinə ödənilməlidir. (2020-ci ilin 1-ci rübü üzrə bəyannamə 2020-ci ilin aprel ayının 20-dən gec olmayaraq təqdim edilməlidir).

· Muzdlu işlə əlaqədar 2020-ci ilin yanvar ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan vergi 2020-ci ilin fevral ayının 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (2020-ci ilin 1-ci rübü üzrə bəyannamə 2020-ci ilin aprel ayının 20-dən gec olmayaraq təqdim edilməlidir).

· Xüsusi notariusların 2020-ci ilin yanvar ayı üzrə hesabladığı gəlir vergisi 2020-ci ilin fevral ayının 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (2020-ci ilin 1-ci rübü üzrə bəyannamə car ilin aprel ayının 20-dən gec olmayaraq təqdim edilməlidir).

Əmlak vergisinin ödəyiciləri olan müəssisələr tərəfindən 2020-ci ilin 1-ci rübü üzrə hesablanmış əmlak vergisinin cari ödəmələri fevral ayının 17-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

Qeyd: 15.02.2020-ci il tarixi qeyri-iş gününə təsadüf etdiyindən həmin tarixədək ödənilməli cari ödəmələrin və sığorta haqlarının ödənilməsinin son müddəti 17.02.2020-ci il tarixə keçirilmişdir.

**5 saylı Ərazi Vergilər İdarəsi**



Giriş Stella

# Məhəmməd Füzuli adına Şirvan şəhər Parkı xüsusi layihə ilə əsaslı şəkildə yenidən qurulur


Parkın Baş planının perspektiv görünüşü



Böyük Vətən Müharibəsi və 20 Yanvar Abidə Kompleksi

**Son illər ərzində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində ölkəmiz iqtisadi, siyasi, mədəni, sosial və digər sahələrdə çox mühüm nailiyyətlər əldə etmişdir. Cənab Prezidentin diqqət və qayğısı sayəsində ölkəmizin hər bölgəsi abadlaşır, müasirləşir və dünyanın ən inkişaf etmiş diyarlarından birinə çevrilir.**

Ölkə başçısının tikinti-quruculuq və abadlıq işlərini zövqlə və günün tələbləri səviyyəsində aparılması ilə bağlı göstərişlərinə və tövsiyələrinə müvafiq olaraq 2020-ci ildə Şirvan şəhəri ərazisində geniş miqyaslı abadlıq-quruculuq işlərinin aparılması nəzərdə tutulmuşdur. Görüləcək işlərin bir hissəsi olaraq Məhəmməd Füzuli adına Şirvan şəhər Parkı xüsusi layihə əsasında, yüksək keyfiyyətlə və zövqlə əsaslı şəkildə yenidən qurulacaqdır.

Şirvan şəhər İcra Hakimiyyəti tərəfindən təklif edilən layihə əsasında yenidən qurulacaq parkın girişində əvvəllər kiçik yaşayış məskəni olan zaman Şirvan şəhərinin "Qırxçıraq" adlandırılmasını simvolizə edən 40 çıraqdan ibarət sütunların quraşdırılması nəzərdə tutulmuşdur. Parkın mərkəzi hissəsində uşaq əyləncə qurğuları, yelləncəklər, müxtəlif idman qurğuları quraşdırılacaq, mini-futbol meydançası tikiləcək, park xüsusi işıqlandırma sistemi və müşahidə kameraları ilə təchiz ediləcəkdir. Layihə əsasında parkı əhatə edən süni göl təmizlənərək genişləndiriləcək, kiçik qayıqların hərəkəti üçün su yolları inşa ediləcəkdir. Parkda müxtəlif ağaclar və bəzək kolları əkiləcək, gül kompozisiyaları yaradılacaq, suvarma sistemi qurulacaqdır.


"İDEA" və uşaq əyləncə guşəsi

Şəhərin səs-küyündən uzaqlaşaraq istirahət etməyə imkan verəcək Məhəmməd Füzuli adına Şirvan şəhər Parkı əsl təbii park olacaqdır. Çünki istər yaşlı nəslin nümayəndələrinin, istərsə də böyüməkdə olan gənc nəslin sağlamlığı bizim üçün olduqca qiymətlidir. İnanırıq ki, əsaslı yenidənqurma işlərindən sonra Məhəmməd Füzuli adına Şirvan şəhər Parkı şirvanlıların və şəhərimizin qonaqlarının istirahət mərkəzinə çevriləcəkdir.

# GÜLNARIN RÜSTƏMLİ GÜNLƏRİ

## (və ya gözlərin vida görüşü)

HEKAYƏ



*Vaqif ABBASOV*

**(əvvəli qəzetimizin 31 yanvar 2020-ci il tarixli nömrəsində)**

-Nazilə tanış ol, bu Gülnardır. Avtomobil qəzasına düşəndə xəstəxanada mənim həyatımı xilas edənlərdən biri də bu xanım olub. Nazilə gülərüzlə əlini Gülnara uzatdı:

-Çox sağ olun, Rüstəm sizin qayğınızdan, əziyyətinizdən mənə çox danışıb. Gülnar hörmətlə onun əlini sıxdı. Nazilənin üzündə olan təbəssüm, məsumluq, onun saflığından xəbər verirdi. Necə də ürəyitəmiz qadındır, - deyə Gülnar düşündü, belə insana qarşı riyakarlıq etdiyinə utandı...

Həmin gündən sonra Gülnar Rüstəmlə görüşlərində fikrə gedər, düşüncələrə qərq olardı. Rüstəm də onda olan dəyişikliyi hiss etmişdi. Gülnar əvvəlki deyildi. O, deyib gülsə də gözlərinin dərinliyində bir kədər vardı. Dənizkənarı bulvarda Rüstəmin həyat yoldaşı Nazilə ilə görüşün təsirindən ayrıla bilmirdi. Lalə ilə Savalanın təbəssümü onun gözləri qarşısından çəkilmirdi. Bir tərəfdən də Rüstəmə bağlılığı, Rüstəmin ona olan saf məhəbbəti. O, tərəddülər içərisində qıvrılırdı...

Gülnarın işlədiyi xəstəxanaya təlim-təcrübə keçmək məqsədiylə Almaniyadan cərrah-həkim gəlmişdi. Nasir adlı gənc həkim öz təcrübəsini azərbaycanlı cərrahlarla bölüşdürür, həm də müxtəlif xəstəliklərə düçar olmuş insanları əməliyyat edirdi. Bu əməliyyatlarda Gülnar də iştirak edirdi. Hər əməliyyatdan sonra Nasir gətirdiyi kofeyə Gülnarı da qonaq edir, tibb bacısını müxtəlif söhbətlərə cəlb edirdi. Söhbətlərdən məlum oldu ki, Nasir Küveytdə yaşayan ərəb şeyxinin oğludur. Amma tibbi təhsilini Fransada alıb. Ali təhsilini başa vurduqdan sonra Almaniyada klinikalardan birində çalışır. 10 ildir klinikanın hörmətli cərrahlarından sayılır. Bu ərəb oğlan Gülnara hörmətlə və ehtiyatla yanaşırdı. Hətta dolayı yolla ondan ailəli olub olmadığını da öyrənmişdi. Artıq Nasir 4 ay idi ki, Gülnar ilə bir yerdə işləyirdi. Səmimiyyəti, gülər üzü ilə ürəklərə yol tapan Gülnar Nasirin də çox xoşuna gəlmişdi.

Bir gün Nasir:

-Gülnar xanım, mən səninlə ailə qurmaq istəyirəm, bu mənim ciddi sözümdür,- dedi.

Gülnar qəflətən edilən bu evlilik təklifindən təəccübləndi. Hətta bu təklif ona qəribə gəldi...

Mən təhsilimi Avropada almışam,- deyə Nasir sözünə davam etdi. Uzun illərdir ki, Almaniyada yaşayıb işləyirəm. Demək olar ki, doğulduğum torpağa arabir gedirəm. Valideynlərim də təklif edirlər ki, vaxt keçir, ailə qur, amma müsəlman qızı al. Nasir valideynləri ilə, qohum-əqrabası ilə bağlı bir sıra məsələləri Gülnara izah etdi. Gülnara bildirdi ki, razı olsa evləndikdən sonra bir yerdə işləyər, atasının Almaniyada onun üçün aldığı mülkündə ömür sürərlər. Lazım gələrsə Bakıda sənə dəbdəbəli toy edə bilərəm.

Gülnar Nasirin təklifindən sonra, anamla, qohum- əqrabamla məsləhətləşib sənə cavab verərəm, - dedi...

Bir payız axşamı Rüstəmlə görüş təyin etdi. Onlar restoranlardan birində şam yeməyi stolu arxasında əyləşdilər. Rüstəm deyib-gülsə də Gülnarı fikirli, hətta çox dalğın olduğunu duydu. O, yeməyi iştahasız yeyir, arabir meyvə dilimlərini ağzına aparırdı.

-Əzizim, xəstə deyilsən, sənə nə olub?-soruşdu Rüstəm.

-Rüstəm, bu bizim sonuncu görüşümüzdür. Sənin həyat yoldaşının, övladlarının siması mənim gözlərim önündən getmir. Mən onların xoşbəxtliyinə mane ola bilmərəm. Mən onların haqqına girə bilmərəm, - dedi Gülnar. Sonra Nasirlə bağlı söhbəti bütün təfərrüatı ilə Rüstəmə danışdı.

Rüstəm rəng alıb, rəng verdi.

-Gülnar, sən mənim ömrümün ən gözəl çağlarısan, sənsiz mənim üçün çox çətin olacaq, sənin üçün hər şey etməyə hazıram.

-Rüstəm, bilirsən mən sənə necə bağlıyam. Mənim həyatımın şirin anlarısan. Səndən ayrılmaq mənim üçün də çətindir. Amma istəmərəm ki, sənin ailənin, övladlarının gələcəyi sözlü-söhbətli olsun. Bu bizim taleyimizdir. Ona görə Azərbaycanı birdəfəlik tərk edirəm. Görünür belə qismət imiş...

-Bakıdan Berlinə gedən təyyarəyə minik başlanır. Bu elandan sonra Gülnar və Nasir onları yola salmağa gələnlərlə vidalaşmağa, görüşüb ayrılmağa başladılar. Gülnar bir anlığa kimisə axtarırmış kimi ətrafa boylandı. Onun gözləri yaxın küncdə dayanmış Rüstəmin gözlərinə dikildi. Bir anlığa bir-birinə zillənən nəmli gözlər vidalaşaraq ayrıldılar. Bir azdan havaya qalxan təyyarə Berlinə tərəf istiqamət aldı...

## ETIBARSIZDIR

Səlimov Fərhad Hüseynxan oğluna məxsus (keçmiş Əli Bayramlı, indiki Şirvan şəhəri, Füzuli küçəsi döngə 2, ev 3) mənzilin 01-3№-li qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Şirvan şəhəri, M.Ə.Rəsulzadə küçəsi, ev 63 ünvanda qeydiyyatda olan Qocayev Həsrət Musa oğluna məxsus JN-289F, KOD 91100048 saylı torpağın mülkiyyətə verilməsinə dair şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.

Əmənov Ədalət Gülbala oğluna məxsus Əli Bayramlı şəhərindəki (indiki Şirvan şəhəri) Ərəblinski küçəsi 30 nömrəli 1 mərtəbəli fərdi yaşayış evinin 4 nömrəli qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

## AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİ

***2020/2021-ci tədris ili üçün DİN-in Polis Akademiyasında «hüquqşünaslıq» ixtisası üzrə əyani təhsilə kursantların qəbuluna dair elan***

Müsabiqədə «Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 sm (qızlar üçün 160 sm), çağırışçı kimi Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində qeydiyyatda olan (qızlar istisna olmaqla), buraxılış siniflərində oxuyan və ya tam orta təhsilli, 16 yaşdan 18 yaşadək (2020-ci ilin avqust ayının 1-dək 16 yaşı tamam olacaq və çağırışçı olmayan) Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilər.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, 2020-ci ilin yanvar, aprel və iyul tarixli çağırışlarında hərbi xidmətə getməli olan çağırışçılar, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, eləcə də «Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında» Əsasnamə ilə müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyən vətəndaşlar müsabiqəyə buraxılmır.

Sənədlərin qəbulu 2020-ci il yanvar ayının 27-dən mart ayının 1-dək hər gün (bazar günləri istisna olmaqla) saat 10⁰⁰-dan 17⁰⁰-dək namizədin daimi qeydiyyat yeri üzrə polis idarə və ya şöbələrində həyata keçiriləcəkdir. Namizədlər aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər;

-şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və surəti);

-təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında DİN-ə təqdim olunması üçün arayış və ya tam orta təhsil haqqında sənəd (attestat);

-yaşayış yeri üzrə tibb müəssisəsindən DİN-ə təqdim olunması üçün sağlamlıq haqqında arayış;

-ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (əsli və surəti);

-oxuduğu təhsitl müəssisəsi tərəfindən DİN-ə təqdim olunması üçün verilmiş xasiyyətnamə;

-9x12 sm ölçüdə 2 ədəd, 4x6 sm ölçüdə 4 ədəd fotoşəkil (papaqsız, rəngli, donuq kağızda).

**Şirvan şəhər Polis şöbəsi**

Baş redaktor: F.N.RƏHİMOV

*Təsisçilər:* Şirvan şəhər İcra Hakimiyyəti başçısının aparatı və "İşıq"qəzetinin jurnalist kollektivi

Müəllifin və redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər

Materiallar redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmişdir

Qəzet BZ mətbəəsində çap olunmuşdur.

Telefonlarımız:
Baş redaktor: 6-35-60
Redaktor müavini: 6-31-35
E-mail: ishiq.qezeti@gmail.com

Ünvanımız:
Şirvan şəhəri,
İ.İ.Qayıbov küçəsi 16,
Şəhadətnamə №161
İndeks: 66858
Tiraj: 650